G&A Audit Company Ltd

G&A Audit Company Ltd.
84/92, A.Alekberov str.,
Baku AZ 1073, Azerbaijan
Tel: (+99412) 510 36 99
Fax: (+994 12) 538 70 17
Cell: (+994 50) 223 35 52
E-mail: said@azerinet.com

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## "PAŞA HƏYAT SIĞORTA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN

## rəhbərliyinə

Biz, "PAŞA Həyat Sığorta" ASC-nin 31 dekabr 2011-ci il tarixinə balans, mənfəət və zərər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında maliyyə hesabatlarının auditini apardıq.

*Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti*

Rəhbərlik göstərilən maliyyə hesabatlarının "Milli Mühasibat Uçotu Hesabatı Standarları"na uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Bu məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

*Auditorun məsuliyəti*

Bizim vəzifəmiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Biz auditi beynəlxalq audit standartlanna uyğun aparmışıq. Bu standartlar bizdən etik normalarına riayət etməyi və auditin planlaşdırılması və aparılmasmı maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlannın əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi auditorun mühakiməsindən asılıdır. Tərəfimizdən risklər qiymətləndirilərkən audit prosedurların işlənib hazırlanması məqsədilə Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsinə aid olan daxili nəzarət elementləri nəzərə alınmış, lakin bu zaman Cəmiyyətin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədi güdülmür. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

*Rəy*

Bizim fikrimizcə,təqdim edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Cəmiyyətin 31 dekabr 2011-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini "Milli Mühasibat Uçotu Hesabatı Standartları"na uyğun olaraq düzgün əks etdirir.

Müstəqil auditorun hesabatı 21.02.2012-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi-təsərrüfat subyektində, ikincisi isə "G&A Auditor Firması" MMM-də saxlanılır.

**"G&A Auditor Firması" MMM–nin Direktoru** **S.N. Qafarov**

**Auditoru** **N. Z. Orucov**

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ MÜƏSSİSƏ AUDİTOR FİRMASI G&A AUDIT FIRM AZERBAIJAN REPUBLIC

GA R № 0000060 «21» Fevral 2012-ci il